

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 150 (23.792)

19 avqust 2021-ci il, cümə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Dövlət proqramı icra olunur*

## Əhalinin keyfiyyətli ət və süd məhsullarına olan tələbatının ödənilməsi diqqət mərkəzindədir

***Qədim tarixi keçmişə malik olan baytarlıq təbabəti bütün dövrlərdə öz aktuallığını qoruyan və gündəlik həyata təsirini davamlı olaraq göstərən sahələrdən biridir. Uzun inkişaf yolu keçmiş bu sahə heyvan xəstəliklərinə qarşı mübarizə ilə yanaşı, insan sağlamlığının qorunması və ərzaq təhlükəsizliyinin təmin edilməsində də önəmli rol oynayır.***

Naxçıvan Muxtar Respublikasında baytarlıq xidmətinin müasir dövrün tələblərinə uyğun təşkili xüsusi diqqətdə saxlanılır. Bu sahəyə kompleks yanaşmanın nəticəsidir ki, son illərdə muxtar respublikada baytarlıq xidmətinin maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndirilmiş, texniki vasitələrlə təminat artırılmış, çoxsaylı baytarlıq obyektləri istifadəyə verilmişdir. Görülən işlər öz müsbət nəticəsini vermiş, əhalinin keyfiyyətli ət və süd məhsulları ilə təminatı davam etdirilmiş, heyvanlar arasında yayıla biləcək xəstəliklərin qarşısı vaxtında alınmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Baytarlıq xidmətinin təşkili fədakarlıq və zəhmət tələb edir. Muxtar respublikada epizootik tədbirlərin vaxtında həyata keçirilməsinin nəticəsidir ki, heyvanlar arasında infeksion xəstəlik yoxdur".***

Baytarlıq xidmətinin səmərəli fəaliyyət istiqamətlərindən birini süni mayalanma işinin həyata keçirilməsi təşkil edir. Süni mayalanma sahəsinin inkişafı heyvandarlıq məhsullarının intensiv istehsalını təmin etməyin də başlıca şərtlərindəndir. Muxtar respublikamızda Süni Mayalanma Mərkəzinin tikintisi, şübhəsiz ki, bu sahəyə göstərilən dövlət qayğısının ən mühüm təzahürüdür. Mərkəzin yaradılması ilə bağlı görülən işlər ikinci rübdə başa çatdırılmışdır. Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Süni Mayalanma Mərkəzi istifadəyə verilmişdir. Həmin gün ölkə başçısı cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibədə demişdir: ***"Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb. Kənd təsərrüfatı ilə bağlı görülmüş işlər nəticəsini verməkdədir. Bu gün Süni Mayalanma Mərkəzinin açılışında olduq. Bildirməliyəm ki, ölkəmizdə cəmi iki mərkəz var – biri Göygöldə, biri də Naxçıvanda. Əminəm ki, bu mərkəzin fəaliyyəti nəticəsində yaxın 4-5 ildən sonra Naxçıvanda südçülük sahəsində artıq bütün işlər tamamlanmış olacaq və Naxçıvan özünü necə ki, digər əsas ərzaq məhsulları ilə təmin edir, südlə də təmin edəcəkdir. Yəni bütün bunlar inkişafın təzahürüdür".***



Dövlətimizin başçısının imzaladığı müvafiq sərəncamlara əsasən yaradılan mərkəzin tikintisi 2 hektar ərazidə aparılıb. Burada inzibati bina, karantin binası, baytarlıq klinikası, laboratoriya otağı, toxumlama sahəsi, tövlə, yem anbarı, açıq havada yemsaxlama sahəsi yaradılıb. Onu da qeyd etmək lazımdır ki, ikinci rübdə mərkəzə 3 baş Simmental və 1 baş Holşteyn-friz cinsli törədici buğa alınmışdır. Nəticədə, ikinci rübün sonuna Süni Mayalanma Mərkəzində saxlanılan buğaların sayı 8, kəllərin sayı isə 2 başa çatdırılmışdır.




Mərkəzə Türkiyə Respublikasından dəvət olunan mütəxəssis tərəfindən aprelin 15-də muxtar respublikada fəaliyyət göstərən 19 süni mayalanma texnikinə praktik dərs keçilmişdir. Dövlət proqramının icrasına uyğun olaraq aprel-iyun aylarında 4 min 495 baş iribuynuzlu heyvanda səyyar süni mayalanmanın aparılması və ötən dövrdə mayalanmış 2 min 256 baş buzovun doğulması süni mayalanma məntəqələrinin texnikləri tərəfindən işlərin yüksək səviyyədə davam etdirilməsindən xəbər verir.

Sağlam ətraf mühitin formalaşdırılmasının başlıca şərtlərindən biri tullantıların vaxtında təmizlənməsi və bu işə nəzarətin mütəmadi həyata keçirilməsidir. Naxçıvan Muxtar Respublikasında şəhər və kəndlərin təmizliyinə və səliqəli saxlanılmasına göstərilən diqqət insan amilinin yüksək səviyyədə qiymətləndirilməsinin nəticəsidir. Çünki təmiz ətraf mühitin mövcudluğu cəmiyyətin sağlıqlı fərdlərdən ibarət olması deməkdir. Tələf olmuş heyvan cəsədlərinin ətraf mühitə atılmasının qarşısının alınması da həm ekologiyanın, həm də insan sağlamlığının qorunmasına xidmət edir. Bu istiqamətdə Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası aprel-iyun aylarında diqqətdə saxlanılmışdır. Ümumilikdə, bu dövrdə muxtar respublikada 12 baş iribuynuzlu, 39 baş xırdabuynuzlu heyvan və 15 baş quş tələf olmuşdur. Tələf olmuş heyvanların cəsədləri baytar həkimlərin nəzarəti altında və təlimata uyğun qaydada texniki vasitələrlə qazılan xəndəklərdə dərmanlanaraq basdırılmışdır. Həmçinin heyvan cəsədlərinin ətraf mühitə atılmasının qarşısının alınması məqsədilə Şahbuz rayonunun Kolanı və Biçənək kəndlərində quyular qazılmışdır.

İnsan sağlamlığının qorunmasına xidmət edən tədbirlərdən biri də heyvanlar arasında yayıla biləcək xəstəliklərin vaxtında qarşısının alınmasıdır. Bu xəstəliklər həm heyvandarlıqla məşğul olan təsərrüfatçılar üçün, həm də heyvandarlıq məhsullarının istehlakçıları üçün ciddi təhlükə deməkdir. Heyvanlarda baş verə biləcək xəstəliklərlə mübarizənin ən etibarlı üsullarından biri qabaqlayıcı analizlərin aparılması və peyvəndləmə işinin vaxtında təşkilidir. Dövlət proqramının icrasına uyğun olaraq ikinci rübdə qarayara xəstəliyinə qarşı 21 min 451 baş iribuynuzlu, 728 min 976 baş xırdabuynuzlu, 50 baş təkdırnaqlı, dabaq xəstəliyinə qarşı 12 min 580 baş iribuynuzlu, 499 min 109 baş xırdabuynuzlu, bruselyoz xəstəliyinə qarşı 479 baş iribuynuzlu, 251 min 199 baş xırdabuynuzlu, emkar xəstəliyinə qarşı 99 min 512, pasterellyoz xəstəliyinə qarşı 99 min 579, leptospiroz xəstəliyinə qarşı 19 min 891 baş iribuynuzlu, bradzot xəstəliyinə qarşı 99 min 705 baş xırdabuynuzlu heyvanda, nyukasl xəstəliyinə qarşı 258 min 280 baş quşda peyvəndləmə işi aparılmışdır. Proqramın icrası məqsədilə 579 baş heyvandan götürülən patoloji nümunələr yoxlanılmış və itigedişli infeksion xəstəlik aşkar edilməmişdir. Həmçinin bu dövrdə diaqnostik olaraq vərəm xəstəliyinə görə 9 min 876 baş iribuynuzluda, epididimitə görə 9 min 313 baş qoçda müayinələr aparılmışdır. İkinci rübdə 5 baş xəstəliklərə görə heyvanlardan kal nümunəsi götürülərək yoxlanılmış və təyinatı üzrə tədbirlər görülmüşdür. Aprel-iyun aylarında baytarlıq preparatlarının, yemlərin, yem əlavələrinin, biostimulyatorların, hormonların təhlükəsizliyinə və keyfiyyətinə nəzarət davam etdirilmiş, bu məqsədlə baytarlıq əczaxanalarında 15 reyd keçirilmişdir. Görülən işlər muxtar respublikada epizootik sabitliyin qorunmasını təmin etmişdir.



Dövlət proqramının icrası heyvandarlıqda məhsuldarlığa və istehsal prosesinə müsbət təsir göstərir. Bunun mahiyyəti ondan ibarətdir ki, yayıla biləcək infeksion xəstəliklərin qarşısının alınması heyvandarlıq təsərrüfatlarının davamlı fəaliyyətini təmin edir, eləcə də aparılan süni mayalanma tədbirləri heyvanların cins tərkibinin yaxşılaşması yolu ilə məhsuldarlığı artırır. Lakin təsərrüfatçıların fəaliyyətini stimullaşdıran tədbirlər təkcə bunlardan ibarət deyil. Heyvandarlıqda sığortanın tətbiqi bu sahədə görülən işlərin səmərəsini artıran digər faktordur. Proqramın icrası məqsədilə ikinci rübdə 135 baş iribuynuzlu, 455 baş xırdabuynuzlu heyvan və 140 arı ailəsi üzrə sığorta müqavilələrinin bağlanması onu göstərir ki, muxtar respublikada heyvandarlıq sahəsində həyata keçirilən sığorta xidməti təsərrüfatçıların maddi riskinin mühüm zəmanətçisidir.

Dövlət proqramında nəzərdə tutulan tədbirlərin xüsusi qayğı ilə əhatə etdiyi sahələrdən biri də arıçılıqdır. Həm maddi, həm də mütəxəssis dəstəyi bu sahənin inkişafına təkan verməkdədir. İkinci rübdə muxtar respublikada 3 min 965 arıçı sahibkara məxsus 99 min 740 arı ailəsi qeydiyyata alınmışdır. Daha sonra icmal siyahılar hazırlanaraq aidiyyəti üzrə təqdim edilmiş, nəticədə, arıçı sahibkarlara, ümumilikdə, 997 min 400 manat həcmində subsidiyanın ödənilməsi təmin olunmuşdur. Epizootik tədbirlər planına əsasən infeksion arı xəstəliklərinə qarşı 15 min 804 nümunə yoxlanılmış, xəstəlik aşkar edilməmişdir.



Naxçıvanda baytarlıq təbabəti sahəsində mütəxəssis hazırlığı mühüm diqqət yetirilən məsələlərdəndir. Süni mayalanma texniklərinə tanınmış mütəxəssislər tərəfindən praktik dərslərin keçilməsi ilə yanaşı, ali və orta ixtisas təhsili müəssisələrində bu sahə üzrə təhsil alan tələbələrin də vaxtaşırı təcrübəyə cəlb olunması kadr potensialının gücləndirilməsinə xidmət edir. Bu da muxtar respublikada baytarlıq xidmətinin gələcək fəaliyyəti və davamlı inkişafı üçün mütəxəssis bazasının formalaşmasına səbəb olur. Proqramın icrasına uyğun olaraq ikinci rübdə Naxçıvan Dövlət Universiteti və Texniki Kollecinin müvafiq ixtisasda təhsil alan tələbələri Gəmiqaya Heyvandarlıq Kompleksi, Naxçıvan Muxtar Respublikası Baytarlıq Laboratoriyası və Dövlət Baytarlıq Xidmətində istehsalat təcrübəsinə cəlb edilmişlər. Həmçinin kollecin tələbələri üçün Süni Mayalanma Mərkəzində birinci rübdən etibarən təşkil olunan texnoloji təcrübənin aprelin 26-dək davam etməsi mərkəzin kadr hazırlığı sahəsində də önəmli rol oynadığını deməyə əsas verir.

Heyvandarlığın inkişafı heyvanların saxlanma və yem şəraitinin səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Muxtar respublikamızın təmiz havaya və zəngin bitki örtüyünə malik yaylaqları bu istiqamətdə təsərrüfatçılar üçün geniş imkanlar vəd edir. Mövsüm ərzində heyvanların yaylaqda saxlanılması ət və süd məhsullarının keyfiyyətinə mühüm təsir göstərir. Heyvanlar yaylağa aparılmazdan əvvəl həyata keçirilməli tədbirlərdən biri yataq yerlərində dezinfeksiya işlərinin aparılmasıdır. Dövlət proqramının icrasına uyğun olaraq ikinci rübdə muxtar respublika üzrə 16 yaylaqda, ümumilikdə, 74 min 240 kvadratmetr sahə dezinfeksiya edilmişdir. Heyvanların yaylaq şəraitində epizootik durumunun araşdırılması və sahibkarlara lazımi köməklik göstərilməsi məqsədilə Batabat yaylağında səyyar baytarlıq xidməti təşkil olunmuşdur.

İyun ayında Qaraquş, Qazan, Dəmirli, Salvartı, Əyriçay və Batabat yaylaqlarında təsərrüfatçılarla maarifləndirici görüşlər keçirilmişdir.

**"Şərq qapısı"**

Təhsil millətin gələcəyidir

# Təhsilimiz davamlı inkişaf edir

## Bunu yüksək bal toplayan məzunlarımız da sübut etdi

*Muxtar respublikamızda təhsil davamlı inkişaf dövrünü yaşayır. Yeni tikilən, yenidən qurulan məktəb binalarında yaradılan müasir şərait bu sahədə əldə olunan nailiyyətlərin əsasını təşkil etməklə həm də təhsil mühitinin bugünkü inkişaf səviyyəsindən xəbər verir. Yaradılan şəraitin, gəncliyin inkişafına göstərilən qayğının nəticəsidir ki, ümumtəhsil məktəblərini bitirən məzunlar ali və orta ixtisas təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək nəticələr göstərir, gələcəyin yeni fikirli, müasir düşüncəli, peşəkar gəncləri kimi yetişirlər.*



Builki qəbul imtahanlarında ***I ixtisas qrupu üzrə 682 bal toplayaraq muxtar respublika birincisi olan İlhamə Novruzova*** da belə gənclərimizdən biridir. Müsahibimlə söhbətimdə ilk olaraq bu sitatı xatırladır: "Məktəb cəhalət dərdinin dərmanı, mərifət bağının xiyabanıdır". Qeyd etdi ki, Vətəninə, xalqına layiqli vətəndaş olmaq hissi lap kiçik yaşlarından, məktəbdə oxuduğumuz illərdən bizdə yaranır, böyüdükcə də bu şərəfli missiyanı daim uca tutmağa, qorumağa çalışırıq. Çalışırıq ki, Vətənimiz, xalqımız qoy bizimlə daim fəxr etsin, öyünsün. 2011-ci ildə Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin ibtidai sinfinə qədəm qoyduğum andan ailəmdə görüb-götürdüyüm təhsil mədəniyyəti məni elmin sirlərinə yiyələnməyə daha da sövq etdi. Hər iki valideynim ali təhsillidir. Anam riyaziyyat müəllimi olduğu üçün dəqiq elmlərə daha çox marağım var idi. Elə həmin illər ərzində məktəbimizdə keçirilən bilik yarışlarında fəallıq göstərməyə başladım. IX sinifdə oxuyarkən respublika üzrə təşkil edilən riyaziyyat olimpiadasında Bürünc medal alaraq üçüncü yeri qazandım. Beynəlxalq səviyyədə əldə etdiyim ilk uğurum isə X sinifdə oxuyarkən Rusiyada keçirilən kimya fənni üzrə olimpiada oldu. Burada iştirak etməklə həm I yerin, həm də Qızıl medalın sahibi oldum. Bu hissin insana qazandırdığı sevinci, verdiyi xoşbəxtliyi sözlə ifadə etmək çox çətindir. Ona görə ki, dünyanın bir çox ölkələrinin nümunəvi şagirdlərinin iştirak etdiyi beynəlxalq səviyyəli bu yarışda mən doğulub boya-başa çatdığım muxtar respublikamızın, ölkəmizin adını ucaltmışdım. Məktəb həyatımda qazandığım digər bir uğurum isə I ixtisas qrupu üzrə keçirilən qəbul imtahanında 682 bal toplayıb, muxtar respublika birincisi olmağımdır. Bu nəticəni əldə etmək heç də asanlıqla başa gəlməyib. Bunun üçün daim zəhmət çəkməli, fədakarlıq göstərməlisən. Bu yolda mənim dəstəkçilərim ailə üzvlərimlə yanaşı, müəllimlərim də oldu. Elə bir şagirdin də həyatında ən gözəl şey onun savadlı, necə deyərlər, əsl mənəviyyat timsallı ideal müəlliminin olmasıdır. Bu mənada, mən çox şanslıyam...

Məqsədim Bakı Ali Neft Məktəbinin tələbəsi olmaq, burada oxuduğum müddətdə yeni-yeni uğurlara imza atmaq və diyarımızı daha gözəl şəkildə təmsil etməkdir. Unutmamalıyıq ki, bizlər, hər şeydən əvvəl, Azərbaycan gəncinin inkişafını, tərəqqisini, elmini daim uca tutan ümummilli lider Heydər Əliyevin davamçıları, müstəqil Azərbaycanın işıqlı gələcəkləriyik. Bu şərəfli və məşəqqətli yolda bütün gənclərə uğurlar arzu edirəm.



***Naxçıvan Qızlar Liseyinin məzunu Bəhriyyə Mustafayeva*** qəbul imtahanlarında IV ixtisas qrupu üzrə 661 bal toplayıb. Onunla söhbət zamanı dedi: – Muxtar respublikamızda keçirilən fənn olimpiadalarında iştirak edərək bir sıra uğurlar əldə etmişəm. Bu il isə biologiya fənni üzrə təşkil edilən olimpiadada I yerə layiq görülmüşəm və Qızıl medal qazanmışam. Ümumi orta təhsilimi fərqlənmə attestatı ilə başa vurmuşam. Eyni zamanda isə tam orta təhsilimi xüsusi nümunəli attestatla bitirmiş, nailiyyətlərimə görə "Qızıl" nişana layiq görülmüşəm. "Sabahın alimləri" X respublika müsabiqəsində iştirak edərək sertifikat və layihənin 10 illiyi ilə bağlı hazırlanmış medalla təltif olunmuşam. Təhsil aldığım müddətdə ailəm və liseyimizin müəllim kollektivi məndən qayğısını əsirgəməyib. Uğur qazanmaq üçün isə qarşıya hədəf qoymalı və çox çalışmalısan. İnsan yalnız öz biliyinə güvənməlidir. Unutmamalıyıq ki, heç bir uğur təsadüfi deyil. Bütün uğurlarımızın ardında əzmkarlığımız və əməyimiz dayanır. Uşaqlıqdan ən böyük xəyalım həkim olmaq idi. Və artıq bu gün ona çox yaxınam. Topladığım bal ilə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinə daxil olmaqla gələcəyin savadlı kadrı kimi formalaşacağıma inanıram. Muxtar respublikamızın bu ali təhsil ocağında tibb kadr hazırlığı üçün yaradılan şərait, müasir xəstəxana və laboratoriya haqqında müfəssəl məlumat əldə etdikdən sonra bu qərara gəlmişəm.

***III ixtisas qrupu üzrə 631 bal toplayan Nurxan Mirzəyev***



22 iyun 2004-cü ildə Naxçıvan şəhərində anadan olub. O, Heydər Əliyev adına tam orta məktəbdə təhsil alıb. Söhbət zamanı qeyd etdi ki, təhsil aldığı illərdə dəfələrlə məktəbdaxili, məktəblərarası, muxtar respublika səviyyəli yarışlar və fənn olimpiadalarında və respublika fənn olimpiadalarında iştirak edərək nailiyyətlər qazanıb: – IX sinifdə verdiyim şəhadətnamə imtahanında yüksək nəticə əldə edərək fərqlənmə attestatına layiq görülmüşəm. Bu və digər uğurlarımın ardınca bu il respublika fənn olimpiadasında tarix fənni üzrə Gümüş medal qazanaraq Azərbaycan ikincisi olmuşam. Builki qəbul imtahanında yüksək nəticə göstərmişəm. Onu da deyim ki, imtahan mənim üçün çox rahat keçdi. Tək nigaran qaldığım vaxtı düzgün bölmək idi, amma bunun da öhdəsindən gələ bildim. Özümə inanırdım. İnanırdım ki, çəkdiyim əziyyətlərin bəhrəsini görəcəyəm. Gördüm də, şükür Allaha. Mənə ən böyük dəstəyi ailəm, həm bibim, həm də mənə dərs demiş Könül müəlliməm verdi. Təbii ki, ailəmə və başda Könül müəlliməm olmaqla, mənim üzərimdə əməyi olan bütün müəllimlərimə təşəkkürümü bildirirəm. Dövlət Gömrük Komitəsinin Akademiyasında Hüquq fakültəsi üzrə təhsilimi davam etdirmək, gələcəkdə Vətənimə və xalqıma düzgün və ədalətlə xidmət edən gömrük əməkdaşı, hüquqşünas olmaq istəyirəm. Bakalavr təhsilim boyunca bir neçə xarici dil öyrənməyi nəzərdə tutmuşam. Təhsilimi başa vurduqdan sonra xaricdə magistr təhsili almaq, buranı bitirdikdən sonra isə Dövlət Gömrük Komitəsində dövlətimizə şərəflə xidmət etmək arzusundayam.

Biz də gələcəyimiz olan gənclərimizə ali təhsil yollarında uğur və müvəffəqiyyətlər arzulayırıq.

**Güntac ŞAHMƏMMƏDLİ**
**Məcid RƏŞADƏTOĞLU**
**Aytac CƏFƏRLİ**



Müasirləşən kəndlərimiz

# Təbiətin Ləkətağ möcüzəsi

***Təbiətlə bağlı material hazırlamaq üçün şəhərdən dağ kəndlərimizə yolum düşəndə özümü cəmi bir neçə kilometr aralıdakı başqa bir yurd yerinə gedirmiş kimi deyil, tamamilə ayrı bir aləmə düşmüş kimi hiss edirəm.***

Çünki kənd bambaşqa aləmdir. Belə yaşayış ünvanlarında təbiət insanın ən böyük həmdəmi, ilham mənbəyidir. Bizi əhatə edən ətraf aləm gözəl təbiət mənzərələri ilə zəngindir. Adi bir su şırıltısı, yarpaqların xəfif titrəyişi, qarışıq fikir və düşüncələrimizi alıb götürən həzin meh bizi xəyallar aləminə aparır. İnsan bir anlıq bu əsrarəngiz aləm qarşısında heyrətini gizlədə bilmir. Şair qələmi, rəssam fırçası acizdir bunları vəsf etmək üçün...

Yolumuz belə yaşayış məntəqələrindən birinə – Culfa rayonunun Ləkətağ kəndinədir. Bir neçə dəfə olmuşam orada. Yolboyu ətrafı seyr edirəm. Cəmi bir saata qədərlik yolda pəncərədən çöldəki təbiət dəfələrlə rəngini dəyişir. Yeri gəlmişkən, onu da deyim ki, uzun illər əvvəl Ləkətağa gediş-gəliş çox çətin olub. Buna da səbəb ucqar dağ kəndinin yollarının bərbad vəziyyəti idi. Ancaq muxtar respublikada kompleks quruculuq tədbirlərinə başlandıqdan sonra Ləkətağa gedən yol da əsaslı surətdə yenidən quruldu.

Həmin yolla irəlilədikcə hər rəng bir yeni ovqat, yeni düşüncələr, yeni təəssüratlar gətirir özüylə. Yenicə biçilmiş taxıl sahələrini, yol boyunca uzanan yaşıllıqları gördükcə gözün bayram edir, sanki. Qış yuxusuna yatan təbiətin bahar oyanışı kimi dirçəlirsən. Ləkətağ kəndinə az qalmış isə təbiət bütün gözəlliyi, füsunkarlığı, cazibədarlığı ilə səni salamlayır elə bil. Yamyaşıl, sıx ağaclar, bol oksigen canına can qatır, sanki gümrahlaşırsan.

Gedəcəyimiz ünvana yaxınlaşdıqca havadan gələn sərin meh ovqatımıza daha da xoş əhvali-ruhiyyə gətirir. Uzaqdan möhtəşəmlik mücəssəməsi olan Göydağ görünür. Kəndə bir əzəmət bəxş edən dağın yamacları yaşıl xalını xatırladır, bu mənzərə insan qəlbinə bir təravət bəxş edir. Bizi xüsusi mehribanlıq və qonaqpərvərliyi ilə qarşılayan Arzuman müəllim insanın əhvalını yüksəldən kəndin gözəllikləri ilə bizi tanış edir. Deyir ki, "Dədə Qorqud" filmində torpaq haqqında deyilən söz hər birimizin qulağında sırğa olmalıdır: "Torpağın Vətən olması üçün iki əsas şərt var: biri odur ki, gərək onu qoruyasan, ikincisi isə torpağı gərək əkib-becərəsən. Əgər qoruya bilmirsənsə, əkib-becərməyə, əkib-becərmirsənsə, qorumağa dəyməz". Artıq aforizmə çevrilmiş bu fikir ləkətağlılar üçün də yazılmamış qanuna çevrilib. Əkirlər, becərirlər, gün-güzəranlarını yaxşılaşdırırlar, daxili bazara töhfələrini verirlər.

Kəndin torpaqları çox münbitdir. Ləkətağlılar bu qiymətli sərvətin hər qarışından səmərəli istifadə etməyi bacarırlar. Hər daşında, kəsəyində, gülündə, çiçəyində bir tarix yatan bu füsunkar yer insanı elə ilk dəqiqələrdən öz sehrinə salmağı bacarır. "Həm ziyarət, həm ticarət", – deyib getdiyimiz yerlərdə gəzmək, istirahət etməklə kifayətlənməyib, həm də bu kəndin dadlı meyvələrindən alırıq. Onu deyim ki, ilin bu çağında kənddə böyükdən-kiçiyə hamı üçün iş var. Çölə, tarlaya, adətən, ailəliklə çıxırlar, yetişdirdikləri məhsulu birlikdə yığırlar. Beləcə, yayın qızmar günlərində kəndlinin əli işdən-gücdən soyumur. Əksinə, əkib-becərdiyinin bəhrəsini gördükcə sevinir, tarlanın, bağ-bostanın məhsulunu tez və itkisiz toplamağa çalışır, yorulmaq bilmir. Mal-qarası olanlar ot tədarükünə önəm verirlər. Kişilər ot tayaları qurur, qışın qayğısına qalırlar. Çölçəməndə otlayan mal-qaranın südü bu fəsildə daha keyfiyyətli olduğu üçün qadınlar fürsəti əldən vermir, ondan cürbəcür məhsullar hazırlayırlar. Beləliklə, həm ailələrini ekoloji cəhətdən təmiz ağartı məhsulu ilə təmin edir, həm də satışa təbii ərzaq məhsulu hazırlayırlar. Yaşlılar da evdə duruş gətirə bilmirlər. Şirin-şirin söhbətləşə-söhbətləşə bağ-bostandan yığılan mer-meyvəni həyətlərə daşıyırlar.

Yay günlərində qızlar çöldə işləyən ata-analarına evdən sinidə, boğçada yemək gətirirlər. Yerdən bir çəngə ot qaldıran balaca oğlanlar da bunu hünər sayıb böyüklərə kömək etdikləri üçün qürrələnirlər.

Belə günlərdə kənardakı ağacların kölgəsində, yaşıl otların üstündə oturub dincəlməyin, yaxınlıqdakı göldə, çayda çimib sərinləməyin də öz ləzzəti var...

Həftəsonları Ləkətağ və ona yaxın ətraf kəndlərdə Əlincə çayı boyu onlarla şəhər sakininin istirahət etdiyini görmək olar. Sərin havası və əsrarəngiz təbiəti bu yerləri turizm məkanı kimi də tanıdıb. Elə bil təbiət də öz gözəlliklərini bu yerlərə bəxş edərkən xəsislik etməyib, səxavətlə davranıb. Əlincə çayı, sıra dağlar, bumbuz bulaqlar, kiçik göllərin yaratdığı fərqli mənzərələr buraya ayaq basan insanları, sözün həqiqi mənasında, heyran edir. Qonaqları heyran qoyan təkcə səfalı təbiəti, gözoxşayan gözəlliyi, təmiz və sərin havası deyil, həm də bu yerlərin quruculuq ərməğanlarıdır. Ləkətağda da müasir üslubda tikilmiş bir-birindən yaraşıqlı sosial obyektləri, kənddaxili yolları, fərdi yaşayış evlərini seyr etdikcə müasirliklə qədimliyin vəhdətini görürsən. Yeri gəlmişkən, onu da qeyd edək ki, burada fəaliyyəti ilə yaxından tanış olduğum kənd və xidmət mərkəzlərində, təhsil ocağında yurda bağlılıq, tikilənlərə, qurulanlara minnətdarlıq hissləri duydum. Yaxınlarda isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq



edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası ilə bağlı kənddə "Ləkətağ kənd yaşıl turizm" istirahət sahəsinin yaradılması ilə bağlı tədbirlərə başlanılıb. Onu da qeyd edək ki, kənddəki eyniadlı körpünün təmiri də başa çatdırılıb.

Ləkətağlılar bunları kənd sakinlərinə qayğı kimi dəyərləndirdilər. Məktəbdə eşitdiklərimdən aldığım təəssürat da yüksək oldu: tam orta təhsilini başa vurmuş 6 məzunun hər biri ali məktəblərə qəbul imtahanlarında yüksək nəticələr qazanıb.

Bu yerləri bir az da maraqlı edən Ləkətağ kəndinə çatmamış, Ərəfsə kəndində, iki çayın birləşdiyi ərazidə, yolun sol tərəfindəki təpənin üzərində yerləşən Ərəfsə piridir. Ziyarətgah haqqında müxtəlif mülahizələr vardır. Burada üç ərəbin dəfn edilməsi söylənilir. Pirin həyətində bərpa edilmiş bulaq daşı üzərində Seyid Hüseyn pirinə ərməğan olunduğu qeyd edilib. Pirin otaqlarının birində olan üç qəbirdən başqa, həyətdə də üç qəbir vardır. Ərəfsə piri haqqında "Naxçıvan Abidələri Ensiklopediyası"nda oxuyuruq: "Culfa rayonunun Ərəfsə kəndində orta əsrlərə aid ziyarətgah. İki böyük otağı, cənub və şərq tərəfə eyvanları var. Əsas ziyarət obyekti nisbətən böyük ölçüyə malik mərkəzi otaqdakı qəbirdir. Pirin adı kəndin adından götürülərək qədim sak türklərinin adı ilə bağlıdır. Pirin yerində Xanəgah olması barədə mülahizələr mövcuddur".

Bizim eradan əvvəl VIII-VII əsrlərə aid edilən qədim Ərəfsə piri kənd sakinlərinin söylədiklərinə görə, möcüzələrlə dolu bir ziyarətgahdır. Kəndin yaşlı sakinləri pirdə daşyapışdırma, daşqaldırma kimi inanc formalarının indi də yaşadıldığını söyləyirlər. Pirin eyvanında böyük niyyət daşı var. Daşın yapışması, eyni zamanda qaldırılan daşın insana yüngül gəlməsi inancı xalq arasında duaların qəbul edildiyi fikrinin yayılmasına səbəb olub. Bu gün həm Ərəfsədən, həm də qonşu kəndlərdən piri ziyarət edənlər çox olur.

*... Ləkətağ kəndi, onun insanları, insanların məşğuliyyət sahələri, zəngin və gözəl təbiəti haqqındakı yazımızı bir qədər də genişləndirə bilərik. Bunun üçün Ləkətağda həmsöhbət olduğumuz insanların öz dədə-baba yurd yerlərinin keçmişi, bugünkü inkişafı ilə bağlı söylədikləri kifayət edər. Ancaq unutmayaq ki, min eşitməkdənsə, bir görmək daha faydalıdır... Həm görmək, həm də istirahət və təbiəti seyr etmək üçün...*

**Alim AĞAYEV**
***"Arazın səsi" qəzetinin redaktoru***

Dövlət proqramı icra olunur

# Sağlamlıq imkanları məhdud uşaqlar yüksək dövlət qayğısı ilə əhatə olunmuşdur

***Sağlamlıq imkanları məhdud uşaqlar cəmiyyətin xüsusi sosial qayğıya ehtiyacı olan nümayəndələridir. Həmyaşıdları ilə bərabər imkanlara malik sağlam mühitin formalaşdırılması bu uşaqların cəmiyyətə inteqrasiya olunması baxımından olduqca əhəmiyyətlidir. Çünki bu istiqamətdə həyata keçirilən tədbirlər məhdud fiziki imkanlı uşaqların özlərini cəmiyyətdən təcrid etməsinin qarşısını alır və onların hərtərəfli inkişafı üçün əlverişli şərait yaradır.***

Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının təmin olunması və onların sosial statusunun bərpası xüsusi diqqətdə saxlanılan məsələlər sırasındadır. Ötən müddətdə icrası uğurla həyata keçirilən Dövlət proqramlarından əldə edilən nəticələr bunu deməyə əsas verir. "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"ndan sonra "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın da icrasının uğurla başa çatdırılması bu sosial kateqoriyadan olan uşaqların layiqli vətəndaş kimi formalaşması istiqamətində görülən işlərin kompleks xarakter almasına səbəb olmuşdur. Sonuncu proqramın icrası müddətində Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində diqqət zəifliyi olan və hiperaktiv uşaqlar üçün müasir tədris vasitələri ilə təmin olunmuş təlim-bərpa otağı istifadəyə verilmiş, fərdi, ailə və uşaq istiqamətli psixoloji dəstək xidməti yaradılmışdır. Bu dövrdə məktəbəqədər təhsil müəssisələrinə 59, ümumtəhsil müəssisələrinə 372, musiqi məktəblərinə 147, idman məktəblərinə 532 sağlamlıq imkanları məhdud uşaq cəlb edilmiş, 319 uşaq məktəbli geyimi və ləvazimatları, eləcə də qış geyimi ilə təmin olunmuşdur.

Görülən işlərin davamlılığını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə bu sahədə yeni – "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Proqramda nəzərdə tutulan tədbirlərin yönəldiyi əsas istiqamətlərdən birini sağlamlıq imkanları məhdud uşaqların təhsilə inteqrasiyasının davam etdirilməsi təşkil edir. Muxtar respublikada təhsilin müasir standartlar səviyyəsində təşkilinə göstərilən diqqət sağlamlıq imkanları məhdud uşaqları da əhatə etməkdədir. Bu kateqoriyanın nümayəndələrinin erkən yaşlardan əhatəli təhsil imkanları ilə təmin olunması onlarda cəmiyyət həyatına psixoloji hazırlığın yüksəldilməsinə və özünəinamın formalaşdırılmasına müsbət təsir göstərir. Dövlət proqramının icrası məqsədilə ikinci rübdə sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi istiqamətində işlər davam etdirilmişdir. Mayın 18-də hərəkət qabiliyyəti məhdud 1 uşaq distant tədrisə cəlb olunmuş, dərs ləvazimatları və məktəbli geyimi ilə təmin edilmişdir. Əlavə olaraq Görmə Qabiliyyəti Məhdud Uşaqlar üçün Xüsusi İbtidai Məktəbin ibtidai təhsil səviyyəsini başa vuran 5 uşağın təhsilini "Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli respublika xüsusi internat məktəbi"ndə davam etdirmələri üçün lazımi sənədlər toplanaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinə göndərilmişdir. İkinci rübün sonunda muxtar respublikanın məktəbəqədər təhsil müəssisələrində 56, ümumtəhsil müəssisələrində 1039 sağlamlıq imkanları məhdud uşaq qeydə alınmışdır.

Bu sosial kateqoriyanın nümayəndələrinin cəmiyyətə uyğunlaşmasında, onlara müxtəlif bacarıq və vərdişlərin aşılanmasında peşə təhsilinin də rolu danılmazdır. Sağlamlıq imkanları məhdud uşaqların peşə təhsilinə cəlbi onların əmək bazarına inteqrasiya olunması və sosial reabilitasiyasının başlıca şərtlərindəndir. İkinci rübdə bacarıq, imkan və maraqları nəzərə alınmaqla Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin xalçaçı, Naxçıvan Şəhər Peşə Liseyinin toxucu və bərbər kurslarının hər birinə 1 uşaq olmaqla, ümumilikdə, peşə kurslarına müvafiq kateqoriyadan olan 3 uşaq cəlb olunmuşdur. Sağlamlıq imkanları məhdud uşaqların müxtəlif peşə sahələri üzrə əmək vərdişlərinə yiyələnmələri onların fərdi inkişafına müsbət təsir göstərən amillərdəndir.

Həmin kateqoriyadan olan uşaqlar üçün inklüziv təhsilin səmərəsini artıran faktorlardan biri də müəllimlərin bu sahədə bilik və bacarıqlarının təkmilləşdirilməsidir. Proqramın icrasına uyğun olaraq ikinci rübdə 18 psixoloq və 12 ibtidai sinif müəlliminə "Autizmli uşaqların cəmiyyətə qazandırılması" mövzusunda seminar keçirilmişdir.

Qeyd olunanlarla yanaşı, bu dövrdə 7 məktəbəqədər, 29 ümumtəhsil, 4 məktəbdənkənar müəssisə, 1 lisey və 12 musiqi məktəbi olmaqla, ümumilikdə, 53 müəssisədə tədrisə cəlb edilmiş 383 sağlamlıq imkanları məhdud uşaqla bağlı monitorinqlərin aparılması təmin edilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün əlverişli təhsil şəraitinin yaradılması ilə yanaşı, tibbi reabilitasiya tədbirlərinin təşkili də onların həyata adaptasiyasına mühüm köməklik göstərir. Muxtar respublikamızda bu kateqoriyadan olan uşaqların reabilitasiya potensialının düzgün müəyyənləşdirilməsi, onların tibbi-terapevtik müalicələrinin təşkili istiqamətində tədbirlər geniş vüsət almışdır. Qeyd olunanlarla yanaşı, sağlamlıq imkanları məhdud uşaqlara psixoloji dəstəyin də göstərilməsi onlarda həyata inam hissinin inkişafına təkan verir. Proqramın icrasına uyğun olaraq ikinci rübdə 32 uşaq bərpa müalicəsinin təşkili məqsədilə göndərişlə təmin olunmuşdur. Bu dövrdə Naxçıvan Uşaq Bərpa Mərkəzində, ümumilikdə, müvafiq kateqoriyadan olan 68 uşağın müalicəsi təşkil edilmişdir. Aprel-iyun aylarında 13 sağlamlıq imkanları məhdud uşaq texniki reabilitasiya vasitələri ilə təmin edilmiş, 19 uşağa protez-ortopedik xidmətlər göstərilmişdir. Əlavə olaraq səyyar xidmət zamanı 2 uşaq ortezlə, 1 uşaq isə veloaraba ilə təmin olunmuşdur. İkinci rübdə 1 uşaq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli Sosial Xidmətlər Müəssisəsinə yerləşdirilmişdir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin reabilitasiya bölmələrinə 24, psixoloji dəstək xidmətinə 39 sağlamlıq imkanları məhdud uşaq cəlb olunmuşdur. Mərkəzdə Dövlət proqramının qəbul edildiyi gündən etibarən "Kukla" və "Nağıl" terapiyalarının tətbiqinə başlanılmışdır. İkinci rübdə bu terapiyalara, ümumilikdə, 52 sağlamlıq imkanları məhdud uşaq cəlb edilmişdir. Yeni terapiyaların fəaliyyətə başlaması sağlamlıq imkanları məhdud uşaqların psixoloji reabilitasiyası və sosial adaptasiyasına köməklik məqsədi daşıyır.

İdman sağlamlıq imkanları məhdud uşaqların əqli və fiziki inkişafının mühüm şərtlərindəndir. Bu sosial kateqoriyanın nümayəndələrinin müxtəlif idman tədbirlərində iştirakının təmin olunması onların istedadlarının üzə çıxarılmasında önəmli rol oynayır. İkinci rübdə muxtar respublikanın şəhər və rayonlarında velosiped, stolüstü tennis, şahmat, boccia, dart və yüngül atletika idman növləri üzrə təşkil olunan 12 müsabiqədə 194 sağlamlıq imkanları məhdud uşaq iştirak etmişdir. Keçirilən müsabiqələrdə iştirak edən uşaqlar müxtəlif diplom, fəxri fərman və həvəsləndirici hədiyyələrlə mükafatlandırılmışlar.

Bütün bunlarla yanaşı, sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtının səmərəli təşkili də onların intellektual və mənəvi inkişafı baxımından effektiv nəticə verir. Təşkil olunan tədbirlər, eyni zamanda uşaqların psixi inkişafına da köməklik göstərir. İkinci rübdə muxtar respublikada fəaliyyət göstərən məktəbdənkənar müəssisələrdə yaradılmış innovativ dərnəklərə 169 sağlamlıq imkanları məhdud uşaq cəlb olunmuşdur. Müvafiq kateqoriyadan olan uşaqlar üçün oxunması zəruri olan kitabların müzakirəsi, rəsm, bədii qiraət müsabiqələri, bilik yarışları, gəzintilər, əyləncəli oyunlar, müxtəlif bədii əsərlərdən ibarət səhnəciklər olmaqla, ümumilikdə, 18 tədbir təşkil edilmişdir. Keçirilən tədbirlərdə bu sosial kateqoriyanın 150-dən çox nümayəndəsinin iştirakı təmin olunmuşdur. İkinci rübdə muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqlardan ibarət "Ümid" musiqi qrupu yaradılmışdır. 18-22 may tarixlərində Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Bədii tikmə və toxuculuq sənəti üzrə təşkil olunan 5 günlük kursda 20 sağlamlıq imkanları məhdud uşağın iştirakının təmin olunması onların ictimai bacarıqlarının düzgün yönləndirilməsinə xidmət etmişdir.

Dövlət proqramının icrası istiqamətində maarifləndirmə tədbirləri də diqqət mərkəzində olmuş, 2 aprel – Dünya Autizm Məlumatlandırma Günü münasibətilə autizm sindromundan əziyyət çəkən uşaqların valideynləri ilə görüş keçirilmişdir. Proqram çərçivəsində həyata keçirilən tədbirlərlə bağlı Naxçıvan Dövlət Televiziyasında "Yaradıcı əllər" verilişi hazırlanmış, "Nuhçıxan" İnformasiya Agentliyinin saytında 12 material yerləşdirilmiş, "Şərq qapısı" qəzetində 4 yazı dərc olunmuşdur.

Muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqlarla bağlı Dövlət proqramlarının qəbul edilməsi və icrasının uğurla həyata keçirilməsi insan amilinə verilən önəmin parlaq nümunəsidir.





**"Şərq qapısı"**

# Dinləyicilər polis andı qəbul ediblər



***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində 30 nəfər dinləyicinin ilkin hazırlıq kursunu bitirdikdən sonra polis andını qəbul etməsi münasibətilə tədbir keçirilib.***

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni oxunduqdan sonra çıxış edən nazirliyin Təşkilat-İnspeksiya İdarəsinin rəisi Rəşad Seyidov bildirib ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu muxtar respublikada uğurla davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bütün dövlət orqanları ilə yanaşı, daxili işlər orqanlarına da daim yüksək diqqət və qayğı ilə yanaşır, Daxili İşlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi üçün mühüm tədbirlər həyata keçirir.

Vurğulanıb ki, daxili işlər orqanlarında xidmətə yeni qəbul edilən gənc əməkdaşların ilkin hazırlıq kursunu bitirdikdən sonra müstəqil xidmətə başlamaları münasibətilə keçirilən andiçmə mərasimi hər bir polis əməkdaşının həyatında ən yaddaqalan və xüsusi anlamı olan bir gündür. Gənc əməkdaşlar xidməti fəaliyyət dövrü bu anda sadiq qalmalı, polis adını daim uca tutmalı, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasında, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, peşəkarlıqlarını artırmaq üçün səylə çalışmalıdırlar.

Rəşad Seyidov daxili işlər naziri, general-leytenant Fazil Ələkbərovun adından dinləyiciləri polis andını qəbul etmələri münasibətilə təbrik edib, gələcəkdə göstərəcəkləri xidmətdə onlara uğurlar arzulayıb.

Andiçmə mərasimində çıxış edən nazirliyin Veteranlar Şurasının sədri, polis polkovniki Yusif Həsənov dinləyicilərə veteran polislərin arzularını çatdırıb.

Məktəbin rəisi, polis polkovniki Kamil Məmmədəliyev bildirib ki, Polis Məktəbinin pedaqoji heyəti olaraq qarşımızda duran əsas vəzifə dövlətçiliyə sadiq, mükəmməl biliyə, yüksək mənəvi-psixoloji keyfiyyətlərə, xüsusi fiziki hazırlığa, möhkəm iradəyə və qətiyyətə malik, cəsur, prinsipial, təşəbbüskar, insanlarla ünsiyyət qurmağı bacaran polis əməkdaşları yetişdirməkdir. Bu işin məsuliyyətini daim üzərimizdə hiss edir, fəaliyyətimizdə Ali Məclis Sədrinin tövsiyə və tapşırıqlarını rəhbər tutur, qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə səylə çalışırıq.

Dinləyici polis sıravisi Tofiq Kərimli kurs yoldaşları adından yaradılan yüksək şəraitə görə minnətdarlığını bildirib və əmin edib ki, gələcək xidməti fəaliyyətində polis adını daim uca tutacaq, dövlətçiliyə sadiq qalacaq, ictimai asayişin və təhlükəsizliyin qorunması istiqamətində vəzifə borclarını dönmədən yerinə yetirəcəklər.

Sonra dinləyicilər polis andı qəbul ediblər.

**✍ Muxtar MƏMMƏDOV**

# Sığortaolunanlar üçün ödədikləri məcburi dövlət sosial sığorta haqlarına elektron qaydada nəzarət imkanı yaradılıb

Muxtar respublikada sosial-iqtisadi sahədə davamlı inkişafın təmin edilməsi idarəçiliyin müasir prinsiplər əsasında həyata keçirilməsini zəruri etmişdir. Bu məqsədlə informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə olunması həyata keçirilən islahatların başlıca istiqamətlərindən birinə çevrilib. Göstərilən elektron xidmətlərin keyfiyyətinin təkmilləşdirilməsi, elektron xidmətlərdən istifadə imkanının artırılması daim diqqət mərkəzində saxlanılır. Müasir informasiya texnologiyalarından istifadə etməklə elektron xidmətlər vasitəsilə əhalini maraqlandıran, həmçinin sığorta-pensiya sisteminə aid bütün məsələlərə aydınlıq gətirilməsi və əhalinin elektron xidmətlərə çıxış imkanlarının daha da genişləndirilməsi məqsədilə ardıcıl tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda da elektron xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi sahəsində mütəmadi olaraq işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində fond və onun yerli qurumları müasir standartlara cavab verən yüksək maddi-texniki baza ilə təchiz olunub. Nəticədə, əhaliyə göstərilən xidmətlər müasirləşdirilərək bu sahədə elektron xidmətlərin tətbiqinə şərait yaranıb və informasiya texnologiyalarının imkanlarından istifadə etməklə fondun bütün sahələri avtomatlaşdırılıb. Bütün bunlar əmək pensiyaçılarına, sığortaedənlərə və sığortaolunanlara göstərilən xidmətlərin keyfiyyətinin xeyli yaxşılaşdırılmasına səbəb olub.

Muxtar respublikada sığorta-pensiya sisteminin aparıcı tərkib hissəsi olan fərdi uçot sisteminin tətbiqinə 2006-cı ildən etibarən başlanılıb. Fərdi uçotun yaradılmasında əsas məqsəd ödənilən məcburi dövlət sosial sığorta haqları ilə pensiya məbləği arasında birbaşa qarşılıqlı əlaqənin yaradılmasıdır. Yəni ödənilən məcburi dövlət sosial sığorta haqları fondda fərdi uçot sistemində açılan fərdi şəxsi hesablara işlənilir ki, gələcəkdə pensiya təyinatı aparıldıqda həmin fərdi şəxsi hesabda olan məlumatlar əsas götürülür.

Qeyd edək ki, fondun fərdi uçot sistemində qeydiyyatda olan hər bir sığortaolunan özünün məcburi dövlət sosial sığorta haqlarının tam məbləğdə köçürülməsinə nəzarət etmək imkanına malikdir. Bunun üçün Naxçıvan Muxtar Respublikasının Elektron Hökumət Portalına *(e-hokumet.nmr.az)*, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet səhifəsinə *(dsmf.nmr.az)* və *e-sosial.az* saytına daxil olmaqla, "Sığortaolunanlara məlumatların verilməsi" adlı elektron xidmətdən istifadə etməklə, hər ay üzrə ödənilən məcburi dövlət sosial sığortası barədə məlumatları, həmçinin illər üzrə öz pensiya kapitalını izləyə bilər.

*Fond tərəfindən qarşıya qoyulan başlıca vəzifələr muxtar respublikada bütün sığortaolunanlar tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının fərdi uçotunun aparılması, bu sahədə elektron xidmətlərin tətbiqinin genişləndirilməsi və vətəndaşların maarifləndirilməsinə nail olmaqdan ibarətdir.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

*İnsan oğlunun yarandığı gündən təbii ehtiyac kimi qidaya, yeməyə daim tələbatı olub. Lakin bir insanın qidası onun yaşadığı ərazi ilə, təbii-coğrafi şəraitlə, məşğuliyyət sahəsi ilə və onun mədəniyyəti ilə əlaqəlidir. Mütəxəssislərin fikrincə, dini, sosial və etnik mənsubiyyət də qidalanmada mühüm rol oynayan amillərdən sayılır. Bu mənada, qədim diyarımız Naxçıvanın çoxəsrlik tarixi, folklor dəyərləri, füsunkar təbiəti kimi, mətbəx mədəniyyəti də özünəməxsus zənginliyi ilə seçilir. Yurdumuzun bərəkətli çöllərində, bağ-bağatlarında yetişən min bir adda, min bir dadda olan nemətlər burada zəngin mətbəx mədəniyyətinin əsasını qoyub.*

# Ocaq ətirli Naxçıvan plovu



Elə sərlövhənin adından da göründüyü kimi, budəfəki mövzumuz yurdumuzun zəngin süfrəsinin əvəzolunmaz təamı olan Naxçıvan plovu haqqındadır. Ocaq ətirli Naxçıvan plovunun bişirilmə prosesi ilə oxucularımızı yaxından tanış etmək üçün yenə də doğma kəndimiz Vayxırın yolunu tutdum.

Mənzilbaşına çatarkən məni uzaqdan-uzağa tanıyan, yaşı 65-i ötmüş Şəmayıl Ələkbərova qarşılayır. Çöhrəsindəki xoş təbəssümlə: “Gəl, ay oğul, gəl. Deyəsən, qayınanan səni yaman çox istəyəcək. Çörək üstünə gəlmisən”, – deyir. Nənəmizin əlinin, üstünün unundan da görünür ki, plovun qazmağı üçün istifadə edəcəyi lavaş təzə olsun deyə, səhərin erkən saatlarından sacda lavaş bişirib. Meyvə ağaclarının kölgəsinə salınmış çay süfrəsi ətrafında əyləşib, sacda bişən isti lavaşdan, bir də ev pendirindən yeyib dincimizi aldıqdan sonra yeməyin hazırlanma prosesinə keçirik. Şəmayıl nənə deyir ki, milli mətbəximiz yalnız özündə yeməklərin bişirilmə qaydasını birləşdirmir, o həm də bizə çoxəsrlik maddi mədəniyyətimizin, ən başda da mətbəx mədəniyyətimizin təşəkkül tarixindən xəbər verir. Bu mənada, tarixi çox qədimlərə dayanan plov həm də yeməklərimizin şahı hesab olunur.

Müsahibimiz, təqribən, bir kiloqrama yaxın düyünü aşsüzənə töküb yaxşıca yuduqdan sonra ocaq üzərində qaynayan suya əlavə edir və deyir ki, hər xanımın öz yeməkbişirmə qaydası var, oğlum. Bəziləri plov bişirəcəyi gün, təqribən, iki-üç saat əvvəldən düyünü soyuq suya qoyur ki, düyü yumşalsın, artımlı olsun. Bəziləri də bax mənim kimi düyünü birbaşa qaynayan suya əlavə edərək hazırlayır. Həmsöhbətim bunların fərqini də diqqətə çatdıraraq deyir ki, düyü əvvəlcədən soyuq suda islaqda qaldıqda, qazandakı isti suya əlavə edən kimi əgər nəzarətdən buraxsan, o saat bölünəcək, necə deyərlər, dənərdənər olmayacaq. Amma islatmadan, olduğu kimi qazana əlavə edib başında gözləsən, yaxşı nəzarət etsən, həmçinin içərisinə bir qədər (iki xörək qaşığı) limon suyu əlavə etsən, düyülər çox gözəl qalar. Şəmayıl nənə gülümsəyərək davam edir: “Ay bala, plov belə gözəl olanda nənələrimiz həmişə deyərdi ki, ay maşallah, elə bil quş dimdiyində bircə-bircə gətirib...”

Düyü 10-15 dəqiqə yaxşı qaynadıqdan sonra nənəmiz onu aşsüzənlərə əlavə edib yüngülcə qaşıqla tərpədir ki, bir az buğu çıxsın və qeyd edir ki, düyünü sudan çıxaran saat qazana əlavə etsən, bir-birinə yapışar və yaxşı dəm ala bilməz. Odur ki, gərək aşsüzəndə, təxminən, 5 dəqiqə gözlədikdən sonra düyünü qazana əlavə edəsən. Aşı süzəcəyimiz qazana bir qədər yağ əlavə etdikdən sonra isə içərisinə lavaş, yaxud da qatıq, düyü və yumurta ilə hazırlanmış qazmaq salınır. Yavaş-yavaş, qazanın hər tərəfinə bərabər şəkildə düyülər əlavə edildikdən sonra üzərinə yağ, kişmiş, zəfəran, yaxud da sarıkök əlavə edərək təmiz bir süfrəni də qapağa büküb dəm alması üçün közün üzərinə qoyuruq.



Bununla da plovun bişirilmə prosesi bitir və keçid edirik aşımızın qarasını, yəni Naxçıvan ləhcəsi ilə desək, plovun üz-gözünü hazırlamağa.

Şəmayıl nənə əvvəlcə 5-6 ədəd orta ölçülü soğanı bərabər şəkildə doğrayıb yuduqdan sonra tavaya əlavə edib qızartmağa başlayır. Soğan qızardıqdan sonra onu qazana yığıb, üzərinə iri ölçüdə doğranıb bişirilmiş ət və ətin suyunu, həmçinin zövqə görə duz, istiot və limon duzu əlavə edib ocağın üzərinə qoyur. Deyir ki, qaynara düşəndən bir qədər sonra xörəyin içərisinə göy-göyərti də əlavə olunacaq. Nənə onu da vurğulayır ki, plovun üz-gözünü də fərqli xoşlayanlar olur. Adətən, xeyirdə-şərdə bizlər şirin qara və sadə qara adıyla iki növ üz-göz hazırlayırıq. Sadə üz-gözün tərkibində iri doğranmış ət, soğan, bir də yalnız kəvərdən istifadə edilir. Amma zövqdən asılı olaraq üz-gözə kəvərin yanında cəfəri, keşniş, ətri gözəl olsun deyə, bir-iki çay qaşığı nanə qurusu əlavə edənlər də olur. Şirin üz-gözü isə, adətən, xeyir işlərimizdə – toylarımızda, nişanda, duvaqqapdı mərasimlərində hazırlayırıq. İçliyinə isə ət, kişmiş, qaysı, xurma, şabalıd, cəviz əlavə edilir.

Nənəmizlə milli mətbəximizin ləziz təamları haqqında söhbət edəcəyimiz zamanın necə gəlib keçdiyinin fərqinə belə, varmır insan. Söhbət əsasında plov haqqında öyrəndiklərimi, eşitdiklərimi bir daha yada salıram: milli mətbəximizin ləziz dadlı incisi, süfrələrimizin şahı sayılan, Şərq xalqlarının süfrə mədəniyyətinə aid olan plovun ölkəmizdə 200-dən çox növü var. 2016-cı ilin sentyabr ayında “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Plov” və “Yallı” festivallarının keçirilməsi, “Plov” festivalında peşəkar və həvəskar aşpazlar tərəfindən hazırlanan, Naxçıvan mətbəxinə də məxsus çeşidli plov növlərinin nümayiş etdirilməsi diyarımızın mətbəx mədəniyyətinin zənginliyini təsdiqləməklə yanaşı, milli dəyərlərimizin bir parçası olan bu mədəniyyətin təbliği baxımından da yaddaqalan olmuşdu. Məni düşüncələrdən ocağın közü üzərində dəmlənən plovun iştahaaçan iyi ayırır.

Şəmayıl nənə ilə başladığımız söhbətə yaxın qonşusu Zeynəb xanımla davam edirəm. Müsahibim plovun bir çox növlərindən danışaraq qeyd edir ki, mətbəxlərimizdə min illərdir, bu yeməyin səbzi, döşəmə, südlü, şüyüdlü, fisincan kimi min bir adda, min bir dadda növləri bişirilərək süfrələrimizin yaraşığına çevrilib. Əsasən, bayram ərəfələrində, Novruz bayramı vədəsində hansı evin qapısını döysən, hansı ailəyə qonaq olsan, orada plovun ətrini hiss edərsən. Bolluq və bərəkət rəmzi olan bu yeməyi nə zaman evimizdə bişirsək, mütləq ondan niyyət edib qonşularımıza da pay göndərərik. Hələ uşaqlıq illərimdən yadımdadır ki, evimizə nə vaxt qonaq gəlsə, atam qonaqlarımız üçün plov bişirməyi məsləhət görərdi. Biz də anamızın başına toplaşıb böyük həvəslə plov hazırlamağa kömək edərdik. Plovu ocaqda dəmə qoyan kimi, mütləq bir qonşu qapını açıb, anamı səsləyib deyərdi: “Ay qonşu, deyəsən, qonağın var, plovun ətri kəndin o başından hiss olunur...”

Zeynəb xanım xalqımızın illərdir, qoruyub saxladığı bolluq-bərəkət rəmzi sayılan təndir ətrafında qız-gəlinlərin keçirdiyi mərasimlərdən də söhbət açaraq qeyd edir ki, əvvəllər toylarımıza iki-üç həftə qalmış xanımlar təndirsərə cəm olub çörək yapardı. Əvvəlcə qız evində yapılan toy lavaşından və həmin gün üçün süzülən plovdan mütləq oğlan evinə göndərilərdi. Daha sonra da oğlan evindən qız evinə bu cür gəlin təamı gətirilərdi. Bununla yanaşı, bu təamı biz nənəbabalarımızdan miras qalan adət-ənənə kimi həm də yas məclislərimizdə, Aşura mərasimlərimizdə, mərsiyələrdə, Vətən uğrunda canını qurban verən şəhidlərimizin yolunda hazırlayaraq ehsan etmişik. Bir şeyi də diqqətə çatdırım ki, qədimdə nənələrimiz plovu mütləq mis qazanda süzərdi. Çünki mis qazanda bişən xörəyin dad-tamı, ətri tamam başqa cür olardı. Hələ o yemək də ocaq ətirli Naxçıvan plovu ola, bəh-bəh, dadından doymaq olmaz...

***Belə, əziz oxucularımız... Bu dəfə də doğma kəndimiz Vayxırın qonağı olduq. Gülərüz və zəhmətsevər Şəmayıl nənə illərdir, süfrələrimizin şahı olan plovun bişirilmə prosesi ilə bizi yaxından tanış etdi. Şahidi olduq ki, bişirmək zəhmət tələb etsə də, işin sonunda, süfrə başında gülərüz, xoşbəxt, səmimi bir ailə tablosunu görmək insanın bütün yorğunluğunu alır. Buna görə də evinizdən xoşbəxtliyin, üzünüzdən təbəssümün, süfrələrinizdən bolluq-bərəkətin əskik olmaması diləyi ilə...***

**✍ Məcid RƏŞADƏTOĞLU**

# Məşğələ keçirilib

Muxtar respublikada Fövqəladə Hallar Nazirliyi tərəfindən mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, təhsil, səhiyyə, sənaye, tikinti və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması, əhalinin maarifləndirilməsi, təbliğat və təşviqat sahələrində məqsədyönlü tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri sahibkarlıq subyektlərinin mülki müdafiə mütəxəssisləri ilə keçirilən mülki müdafiə məşğələsi olmuşdur.

Toplantını giriş sözü ilə açan Mülki müdafiə işinin təşkili şöbəsinin baş məsləhətçisi Azadə Cəfərova məişətdə civə dağılmaları və bu zaman davranış qaydaları, həmçinin mövsümlə əlaqədar olan istivurma, günvurma və bu zaman ilk yardım qaydaları, sülh və müharibə dövrlərində əhalinin güclü təsirli zəhərləyici maddələrdən, radioaktiv və bakterioloji zəhərlənmələrdən mühafizənin təşkili haqqında iştirakçılara məlumat verib.

Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin baş məsləhətçisi Əbülfəz Qafarov mülki müdafiənin daşınan əmlakı – fərdi mühafizə vasitələri, yanğın təhlükəsizliyi, dəm qazı və ondan mühafizə yolları haqqında danışıb.

Məşğələ zamanı əyani vasitələrdən, slayd və videoçarxlardan istifadə edilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# Yoldaşlıq görüşü olub



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə Naxçıvan şəhər tam orta məktəblərində yaradılan idman klubları arasında (2007-2009-cu illər) sərbəst güləş üzrə yoldaşlıq görüşü keçirilib.*

Yarışın açılış mərasimində çıxış edənlər görüşün qaydaları haqqında danışıb, idmançılara uğurlar arzulayıblar. Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası, şəhər Təhsil Şöbəsi, Gənclər və İdman İdarəsi, Uşaq-Gənclər İdman Məktəbinin birgə təşkilatçılığı ilə keçirilən görüşdə 12 çəki dərəcəsi üzrə 40 güləşçi mübarizə aparıb.

Beynəlxalq qaydalara əsasən keçirilən görüşün yekun nəticəsinə görə Asim Kərimli (23 kiloqram), Qəhrəman Qəhrəmanov (25 kiloqram), Ələkbər Əsgərov (29 kiloqram), Şahin Əsgərli (32 kiloqram), David Yaqubov (35 kiloqram), Tuqay Qəhrəmanlı (38 kiloqram), Məhəmməd İsmayılov (42 kiloqram), Sadiq Kərimov (46 kiloqram), Vaqif Əsədov (50 kiloqram), Samir Hüseynov (54 kiloqram), Hüseyn Yasinli (65 kiloqram) və İnci Bağırova (35 kiloqram) rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək zirvəsinə qalxıblar.

Sonda qaliblər mükafatlandırılıb.

**✍ Ceyhun MƏMMƏDOV**

# Kikboksinq üzrə Naxçıvan şəhər açıq birinciliyi



*“Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi ilə keçirilən yarış Olimpiya İdman Kompleksində reallaşıb.*

Naxçıvan Kikboksinq Federasiyası ilə Gənclər və İdman İdarəsi tərəfindən birgə təşkil olunan birinciliyə “Naxçıvan-1”, “Naxçıvan-2”, “Şərur”, “Kəngərli”, “Odlar yurdu” komandaları və “Turan” döyüş klubundan, ümumilikdə, 70 idmançı qatılıb. Görüşlər 3 yaş kateqoriyasında 18 çəki dərəcəsi üzrə keçirilib.

Olimpiya sisteminə əsasən qaliblərin müəyyən olunduğu yarışda 2003-2005-ci illər təvəllüdlü idmançılar arasında Şəmsəddin Əliyev (51 kiloqram), İsmayıl Yaqubov (60 kiloqram), Fərid Məhərrəmov (63 kiloqram), 2006-2007-ci illər təvəllüdlü idmançılar arasında Tuncay Qasımov (39 kiloqram), Sadiq Hacıyev (42 kiloqram), Gündüz Bağırov (51 kiloqram), Ceyhun Kazımov (54 kiloqram), Səhhət Əsədov (57 kiloqram), Sarvan Mirzəyev (60 kiloqram), Süleyman Adıgözəlov (66 kiloqram), Kənan Allahverdiyev (71+kiloqram), 2008-2009-cu illər təvəllüdlü idmançılar arasında isə Qasım Xəlilov (36 kiloqram), Sinan Kazımov (39 kiloqram), Murad Şükürlü (42 kiloqram), Uğur Əliyev (47 kiloqram), Məhəmmədəli Qasımov (51 kiloqram), Sinan Bağırlı (57 kiloqram), Hüseyn Zamanlı (60+ kiloqram) rəqiblərini məğlub edərək fəxri kürsünün ilk pilləsinə qalxıblar.

Komanda hesabında “Turan” döyüş klubu 1-ci olub. “Naxçıvan-1” komandası 2-ci, “Naxçıvan-2” isə 3-cü sırada qərarlaşıb. İlk üçlükdəki idmançılara diplom və medallar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Şərur rayonu, Sərxanlı kənd sakini Şükürov Famil Aşot oğlunun adına verilmiş JN- 22^A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair” şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xələc kənd sakini Heydərova Ələviyə Zülfəli qızının adına verilmiş JN-0036 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Məmmədov Əbülfəz Yunis oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 670